**Təhsil Proqramının təlim nəticələri (PTN)**
**"Biologiya müəllimliyi"**

**PTN 1.** İxtisası üzrə həm Azərbaycan dilində, həm də xarici dildə şifahi və yazılı şəkildə kommunikasiya qurur, müzakirələr aparır, müvafiq məlumatı təhlil edir və hər hansı problemin həlli üçün əlavə informasiya resurslarını müəyyən edir.

**PTN2.** Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti, insan haqq və hüquqlarına dair biliklərə malik olmaqla, dövlətimizin siyasi və hüquqi maraqlarını qorumaq qabiliyyətinə malik olduğunu nümayiş etdirir.

**PTN 3.** Müasir İnformasiya və Kommunikasiya Texnologiyalarından (İKT) yerində və səmərəli şəkildə istifadə edir.

**PTN 4.** Pedaqoji etikaya, etik davranış qaydalarına riayət edir və sosial həyat bacarıqlarına sahib olduğunu nümayiş etdirir.

**PTN 5.** Mənəvi, psixoloji, fiziki sağlamlığın qorunması qaydalarına əməl edir, fövqaladə vəziyyətlərdə özünü idarə etməyi bacarır.

**PTN 6.** Qazandığı təməl bilikləri yeni ideya və kəşflərin başa düşülməsində tətbiq etməyi bacarmalı, tənqidi düşünmə bacarığına malik olmalıdır. Buraya mövcud elmi tədqiqatları oxumaq, başa düşmək və analiz etmək bacarıqları daxildir.

**PTN 7.** Fikir, fərziyyə, nəzəriyyə, müxtəlif elmi anlayışları ayırd etməyi və nəticələri elmi konteksdə izah etməyi bacarır. Eksperimentlər tərtib etmək, məlumatları şərh etmək, informasiyanı əldə etmək və qiymətləndirmək bacarığına malik olur.

**PTN 8.** Canlıların molekulyar, morfoloji və anatomik quruluşu, biokimyəvi və fizioloji xüsusiyyətləri, genetikası, təkamülü, yayılması, çoxalması haqqında müasir biliklərə yiyələndiyini nümayiş etdirir.

**PTN 9.** Müasir bioloji tədqiqatlarda istifadə olunan texniki və analitik bacarıqlara, düzgün və təhlükəsiz laboratoriya təcrübəsinə malik olmaq, avadanlıqlardan və əsas metodikalardan istifadə etmək bacarığı.

**PTN 10**. Biologiya fənninin tədrisində mövzular üzrə səmərəli, motivasiyaedici dəsrlər təşkil edə bilir. Həmçinin biologiya fənnin kurikulumuna uyğun olaraq dərs planlarının icmalını hazırlaya bilir.